Ədəbiyyat qəzeti

32

13 mart / 2021

# Sadıq Xanəliyev - 85



Hörmətli Sadıq müəllim!

Sizi - tanınmış şair və publisisti 85 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1936-cı il mart ayının 8-də Ordubad rayonunun Bist kəndində anadan olmusunuz. Burada kənd orta məktəbinin 7-ci sinfini başa vurduqdan sonra Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsində təhsil almısınız (1953-1960). Texnikumun 4-cü kursunda oxuyarkən hərbi səfərbərliyə alınmış, ordu sıralarında xidmət etmisiniz (1956-1959). Bu zaman Moskva vilayətinin "Krasnı voin" qəzetində hərbi müxbir kimi çıxış etmiş, tərxis olunduqdan sonra texnikumda təhsilinizi davam etdirmisiniz. Sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuş, buranı fərqlənmə diplomu ilə bitirmisiniz.

Əmək fəaliyyətinə Bist kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamısınız. Azərbaycan Kitabsevərlər Cəmiyyəti İdarə heyətinin üzvü (1975) olmusunuz. "Maarif əlaçısı" (1984), "Əməkdar müəllim" kimi fəxri adlara, keçmiş SSRİ-nin bir çox diplom, fəxri fərman və döş nişanına, "Normandiya-Neman" medalına layiq görülmüsünüz.

"Yada sal məni", "Xatirə", "Dahilər yetirən müəllim", "Unuda bilməyəcəyəm", "Onun zirvəsi", "Dağlardan baxıram yer kürəsinə", "Əziz Şərif əsərlərinin biblioqrafiyası" və s. kitablarınız çap olunmuşdur. Şeirlərinizə mahnılar bəstələnmişdir. Şeirləriniz O.Sestinski, İlham Bədəlbəyli, P.Simonov və Vladimir Qafarov tərəfindən rus dilinə, Mixail Stelmax tərəfindən Ukrayna dilinə çevrilmiş, "Literaturnı Azerbaydjan", "Oqonyok", "Dnepro" jurnallarında, "Molodaya qvardiya" nəşriyyatının nəşr etdirdiyi polemika kitabında çap olunmuşdur.

Hörmətli Sadıq müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edirik. Sizə cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*